*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 161-165*

https://doi.org/10.62837/2025.3.161

**SEVİNC SƏYYAD QIZI HƏMƏYEVA**
***Fil.ü.fəl.dok. dos.***
**Sumqayıt Dövlət Universiteti**
**Sevinc.hamzayeva@sdu.edu.az**

# Ə. HAQVERDİYEV VƏ HAUPTMAN YARADICILIĞINDA SƏSLƏŞMƏLƏR
## (“Pəri cadu” və “Qərq olmuş çan” əsərləri)

## Giriş

XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri kimi tan;nan Əbdürrəhim bəy Haqverdiyevin ədəbi fəaliyyət illəri maarifçilik dövrünə təsadüf etdiyindən əsərləri demək olar ki, bu cərəyanın təsiri altında qələmə alınmışdı. Eləcə də, Herhart Hauptman XIX əsrin sonu XX əsrin əvvəllərində Şillerdən sonra alman dramaturgiyasını yeni mərhələyə çıxaran tanınmış yazıçı hesab olunur/ Hər iki ədibin yaradıcılığında oxşar məqam ondan ibarətdir ki, əsərlərində simvolizmdən maqrealizmə doğru yönələn bir inkişaf xəttinin ilkin izləri müşahidə olunur. “Pəri cadu”da olan ideya müəllifin Xortdanın cəhənnəm məktublarında da özünü göstərirsə, Hauptman da mənəvi inkişaf məsələsinə Hötesayağı yanaşaraq həqqin dərkində humanist dəyərlərə üstünlük verir və bu zaman gərəkdiyi qədər simvolikadan istifadə edilir.

**Əsas hissə**

Herhart Hauptman 1862-ci ildə noyabrın 15-də Polşada Şavno–Zdruy şəhərində anadan olub, əvvəl Polşa İncəsənət Akademiyasında, sonra İyen universitetində heykəltaraşlq üzrə təhsil almışdır. 1884-cü ildə öz emalatxanasını açmaq üçün Romaya gedir. Tibbə və psixologiyaya olan marağı onu Sürixdə bu ixtisaslar üzrə təhsil almağa təşviq edir, lakin ədəbiyyatla da maraqlanır.

Müəllifin ilk ədəbi əsəri “Tiberi” dramı və “Promitidlərin taleyi” hesab olunur. Bundan sonra yazıçı naturalizm üslubunda yazmağa başlayır. “Günəş çıxmazdan əvvəl” və “Toxucular” adlı əsərlər ona ilk ədəbi məşhurluğu gətirdi. Müəllifin “Tənha insanlar”, “Bizim yoldaş–Krampton” komediyası, “Hannel” nağılvari pyesi, “Florian Hayer” tarixi dramı da oxucular və tədqiqatçılar tərəfindən diqqətlə qarşılanmış və sevilmişdir. 1907-ci ildə Yunanıstana səfər edən Hauptman təəssüratlarını “Yunanıstanda bahar” əsərində cəm edir, 1910-cu ildə “Emmanuel Kvint”, “Böyük ananın adası” əsərləri qələmə alınır. Dramaturgiya sahəsində məhsuldar əməyi və hərtərəfli fəaliyyətinə görə Nobel mükafatına təqdim olunur. Şillerdən sonra alman teatrı məhz onun sayəsində yenidən ucalmışdı. Dramaturqun əsas işi insanın mənəvi həyatını təsvir etmək onu düzgün boyalarla göstərməkdən ibarət olduğunu iddia edən Hauptman hesab edirdi ki, müəyyən bir psixoloji akt baş

verir və dramaturq məhz bu prosesi olduğu kimi verməyi bacarmalıdır. Məhz bu səbəbdən "sənətin predmeti–çılpaq qəlb, çılpaq insandır" konsepsiyasını irəli sürür.

Görüşləri etibari ilə yazıçı pasifist idi. I Dünya müharibəsində Almaniyanın məğlubiyyətindən sonra 1918-ci ildə müəllif Veymar respublikasının yaranması təşəbbüsü ilə çıxış edir. Yazıçı Hitlerin siyasi dəst-xəttini qəbul etmirdi, buna baxmayaraq, o hakimiyyətə gələndə Hauptman vətənini tərk etmək istəmir. Bu bəzi oxucularını narazı salır və müəllif 1942-ci ildə "Böyük yuxu" əsərini yazır. 1945-ci ildə ingilis və amerikanların Drezdeni bombalayır. Hauptman bu şəhəri çox sevdiyinə görə bombalanma ona çox pis təsir edir və onu dərin depressiyaya salır.

Yazıçı fəlsəfə və psixoloji mövzulara meyl edir, sosial problemlərlə maraqlanır, Marksı, Darvini oxuyur, Emil Zolya, İbsen, Dostoyevski, Tolstoy, Turgenevin və s. yaradıcılığına dərin rəğbət bəsləyirdi. Yazıçı kimi o müxtəlif janrlarda qələmini sınayır və uğur qazanır. Lirika və nəsr sahəsində şeirlər, hekayələr, dram əsərləri yazır.

1896-cı il dekabrında Berlində ilk premyeradan I Dünya Müharibəsinə qədər "Qərq olmuş çan" əsəri kifayət qədər məşhur və sevilən sənət əsəri olmuşdur. Bu əsərin nəzəri təhlilinə əsasən bəzi tədqiqatçıların onu simvolist və ya neoromantik adlandırmasına etiraz edir və belə bir nağıl–pyesin ərsəyə gəlməsi realizmdən uzaqlaşmaq anlamını vermədiyini qeyd edir. Əsərdə Hauptman yaradıcılığının əsas motivi səslənir ki, bu da özünü müəllifin əxlaqi məsələlərə münasibətində göstərir.

Əsərdə müəllif böyük ustalıqla alman mifoloji süjetlər, Sileziya saqalarından istifadə edir və bunu əsərin başlanğıcında alman nağıl-dramı adı ilə ümumiləşdirir. Əsərin əsas obrazı - Henrix haqqında danışarkən bəzi tədqiqatçılar onu Nitsesayağı qəhrəman hesab edir, digərləri isə bu fikri təkzib edir.

Allen Makkomik əsər haqqında danışarkən göstərdi ki, Hauptman tənqidinin qəribə cəhətlərindən biri də budur ki, Rauntendeleyyin və onun əsərdəki rolu haqqında dəqiq fikir söyləmək olmur. Belə ki, bir tərəfdən o, Henrixin xilaskarı, amma digər tərəfdən, onun məhvinə səbəb olan yarıməfsanəvi varlıqdır. Yarı uşaq, yarı gənc qız şəklində təzahür edən elf obrazıdır.

"Pəri-cadu" əsərində hadisələr müəyyən qədər fərqli şəkildə vaqe olur. Əbdürrəhim bəy Haqverdiyevin bu əsəri yazmaq istəyi "Qərq olmuş çan" əsərindən aldığı təsirin sayəsində olur. "Pəri-cadu" əsərinin meydana gəlməsi haqqında müəllif özü deyirdi: "Doxsanıncı illərin ortasında simvolizm deyilən bir ədəbiyyat üsulu teatro səhnəsinə atıldı. Alman ədibi Hauptmanın "Qərq olmuş çan" sərlöhvəli faciəsi mədəniyyət aləminə bir şəşəə saldı. Bu üsulun Şərq ruhuna xeyli uyğun olması məni artıq həvəsə gətirdi. Və mən Şərq həyatından götürülmüş simvolik bir əsər teatromuz üçün yazmaq fikrinə düşdüm. Nəhayət, 1901-ci sənədə "Pəri-cadu" nam əsərimi yazdım. Bu neçə ilin müddətində "Pəri-cadu"nun səhnədə müvəffəqiyyət qazanmasına səbəb, haman mən dediyim simvolizmin bizim ruhumuza uyğun olmasıdır."(2.332)

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 161-165*

"Qərq olmuş çan" əsərindən fərqli olaraq, "Pəri-cadu" əsərində iblis öz obrazı, öz görkəmi ilə peyda olur və Pərinin qisas hayqırtısına cavab olaraq, onu intiqama sürükləyir. Müəllifin maraqlı priyomlarından biri əsərin əvvəlində dərviş obrazını polemikaya cəlb etməsidir. XVIII əsrə qədərki ədəbi əsərlərdə və sosial-ictimai həyatda dərvişlər vacib mövqeyə malik olmuş, xalqın güvənilən, müdrik təbəqəsi hesab edilmişlər. Hər mübahisəli məsələlərin həllini tapan, hər müşkülün düyününü açan ən çətin məqamlarda uzaqgörən məsləhətləri ilə fərdin yanında olan, çıxış yolu göstərən dərviş obrazının XX əsrin əvvəlində öz real siması ilə ədəbiyyata gəlməyi, əslində sevindirici məqamdır. Çar Rusiyasının ölkəmizə kobud müdaxiləsi nəinki, siyasi sferada müstəqilliyimizin həbsinə gətirdi, eləcə də, mənəvi planda da dərin yaralar açdı. Öz inamı və mənəvi dərinliyi ilə zəngin olan Şərq İslam dünyasını qəsb etməyin birinci əsas yolu dini inamlara müdaxilə etməkdən keçə bilərdi. Azərbaycan klassik ədəbiyyatında əsas tərənnüm və təbliğ hədəfi insanın mənəvi təkamülü məsələsi olmuşdur. Belə ki, XVIII əsrə qədərki ədəbi nümunələrdə dərviş obrazı xümrə şəklində mənfi olanda təqdim edilmıyib. İstər nağıllar və dastanlar, istərsə də, yazılı dəəbi nümunələrdə dərvişlər öz fəaliyyətində xilaskar və nəcibdirlər. Əsərdəki dərviş obrazını təhlil edərkən tədqiqatçı Pərvanə Bəkirqızı yazır: "Türk mifoloji təfəkküründə dərviş ikili funksiya daşıyan obrazlardandır. Türkdilli xalqların nağıllarında dərviş xeyirxah, sonsuzlara övlad bəxş edən, sevgililərə buta verən nurani qoca, həm də xtonik zona ilə bağlı demonil statuslu obrazlardandır. Mifoloji strukturlu obrazlardan olan dərviş şamani-sufi kompleksinin atributunu daşıyır." (3)

Təəssüf ki, əsər yazıldığı zaman həqiqi qiymətini ala bilmir və bu hal müəllifə pis təsir edir: ""Pəri cadu"ya mövhumat adı qoyurlar. "Pəri cadu"nun ideyası belədir: hər kəsin öz əlinin əməyi onun müqəddaratını təmin edir. İnsan, taleyini kənarda axtarmayıb, öz-özündə axtarmalıdır. Nəfsi-əmmarə dalınca düşüb gedərsə, bəlalara uğrayıb fövt olar. Nəfsilə mübarizə edib, əlinin əməyinə bağlanarsa, axtardığı məqsədinə nail ola bilər. İnsanı həmişə nəhs yollara iğva edən nəfsi-əmmarə Şamama cadu sifətində ortalığa çıxıb. Bu həm Qurbanın, həm Hafizə xanımın, həm Pərinin təbiətində olub, onları asan vəchlə "səadətə nail olmaq" yoluna çəkib, hamısını məhv edir. Qurban ölümünə bir az qalmış səhvini anlayıb Səliməsi tərəfə qaçmaq istəyirsə də, daha iş-işdən keçdiyindən nəfsin çəngəlində fövt olur". (1.13)

Müəllif öz izahında tam haqlı idi. Dərviş obrazının əsərdəki iştirakı və ideyası da yazıçının bu amalından xəbər verir. Çünki, dərviş öz çağırışlarında xeyirxahlığın və mənəvi saflığın tərənnümçüsü kimi çıxış edir. Pərixanım həyat yoldaşının xəyanətini öyrəndikdən sonra dərin qüssəyə qərq olub ağlayır və dərviş məhz bu zaman peyda olur. Pəri yeganə əlacının ancaq göz yaşı olduğunu göstərir, lakin dərviş buna etiraz edir və dərdini bir başqasına danışanda onun həllini tapmağın mümkünlüyünü vurğulayır. Əgər dərdini söyləməyə bir qəlb yoldaşı yoxdursa, müəllif Füzulisayağı addım atır, dərvişin məsləhəti də elə bu fonda təqdim olunur,

Pəriyə öz dərdini dağlara, meşələrə söyləməyi təklif edir, necə ki, Leyli, Məcnun belə edirdi. Lakin Pəri bununla rahatlıq tapmayacağını bildirir və yeganə yolun intiqam olduğunu vurğlayır. "Belə sözləri fikrinə gətirmə, qızım. Bilginən, cəmi məzlumların tərəfdarı Allahdır. Hər bir dünyada zülm edən əcrini Allahdan alır. Qisas bir şərr əməldir. Zülm, həmçinin şərr əməldir. Zülm edən dünyada bir şərr törədir, ondan qisas alan da bir şərr törədib, dünyada iki şərrin törəməyinə səbəb olur. Sən şərrin müqabilində səbr et, ta şərr tək qalsın. Bu fikri başından çıxart, qızım, get atana himayə olginən və zalımı da Allah divanına tapşır. Mən də, düşəndə, bir gəlim sizin yanınıza, sizə keçmiş macəralardan, zalimin zülmündən, məzlumların zülmə təhəmmül edib, axırda təsəlli tapmaqlarından nağıl edərəm. Eşit nəsihətimi, qızım, qayıt atan evinə." (1.110)

**Nəticə və elmi yeniliyi**

Çar Rusiyasının işğalçı siyasıti nəticəsində həm dövlətçiliyimizdən olduq, həm də mənəvi sferada vacib və müqəddəs bildiyimiz dəyərlərə kölgə salındı. Yalançı dərviş siması ilə əhali arasında bir sıra yalançı, fırıldaqçı, ikiüzlü dərviş adı ilə saxtakarlıq edən insanlar çoxaldı və bu insanlar arasında dərvişə olan inama zərbə vurdu. Bədii ədəbiyyatda ikiüzlü ruhani, molla obrazlarının gəlişi də məhz bu mərhələdən sonra baş tutdu. Lakin böyük dramaturq Ə.Haqverdiyev ustalıqla yaratdığı dərviş surəti ilə bu yanlış yanaşmanı aradan qaldırmağa cəhd göstərdi və bu addım müəllifin ideoloji cəhətdən də vacib bir məqamın tərənnümçüsü olmağından xəbər verən vacib detal kimi diqqəti cəlb edir. Sufilər hesab edirdi ki, səbr edən dərviş, muradına ərmiş, bu yolu əsas bilən Haqverdiyev də öz ədəbi qəhrəmanına səbrli olmağı tövsiyyə edir, qəlbini Allaha bağlamağı məqləhət görür. Lakin içindəki etiraz və üsyan hissi böyük olan Pəri bu fikir rədd edir və intiqam həvəsinə düşür. Bir vaxt İblis də təkəbbür göstərmiş və Allaha üsyan etmişdi, o da cənnətdən qovulduğu üçün ondan qisas alacağını bildirmişdi. Pərixanımın bu coşğusu İblisin sevincinə səbəb olur, bir vaxtlar bu hissin əsiri olmuş şər qüvvə Allaha etiraz edənlərdən ibarət ordu sayını çoxaldacağına söz vermişdi. Pəri öz etiraz və qəzəbi ilə bu orduda yer ala biləcək növbəti üzvlərdən biri ola bilərdi və olur.

**Ədəbiyyat**

1. Haqverdiyev Əbdürrəhim bəy. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, "Lider nəşriyyat", 2005, 504 səh.
2. Haqverdiyev Əbdürrəhim bəy. Seçilmiş əsərləri. İкi cilddə. II cild. Baкı, "Lider nəşriyyat", 2005, 408 səh.
3. Pərvanə Bəkirqızı. Ə.Haqverdiyevin "Pəri Cadu" dramında demonik obrazlar sistemi: semantika və funksiya - / https://edebiyyatqazeti.az/news/edebi-tenqid/5952-ehaqverdiyevin-peri-cadu-draminda-demonik-obrazlar-sistemi-semantika-ve-funksiya

4. Алла Персиевна Склизкова. Драма-сказка Г.Гауптмана «Потанувший колокол» как неоромантическое // drama-skazka-g-gauptmana-potonuvshiy-kolokol-kak-neoromanticheskoe-proizvedenie.pdf
5. Magic realism (Literature) 2. Fiction—20th century—History and criticism 3. Spanish American fiction—20th century—History and criticism. I. Zamora, Lois Parkinson. II. Faris, Wendy B. PN56.M24M34 1995 p.596

**ABSTRACT**

**PARALLELISM BETWEEN A.HAGVERDIEV AND GERHART HAUPTMANN'S WORK**
**(The works "The Fairy Witch" and "The Sunken Bell")**

**Key words: simvolism, dervish, spiritual evolution, revange, dramaturgy**

İn the article compares the works of Hagverdiyev and German writer G. Hauptmann, analyzes the ideas and content of the works "The Fairy Witch" and "The Sunken Bell", devoted to a similar theme. It was noted that the reason for writing the work "The Fairy Witch" was "The Sunken Bell". The elements of symbolism and magrealism manifested in both works were discussed.

**РЕЗЮМЕ**

**ПАРАЛЕЛИЗМ МЕЖДУ А.АХВЕРДИЕВ И ТВОРЧЕСТВОМ Г.ГАУПТМАНА**

**Ключевые слова: символизм, дервиш, духовность реванш, драматургия**

В статье сравниваются произведения А.Ахвердиева и немецкого писателя Г.Гаптмана, анализируется идей и содержание произведений «Волшебница пери» и «Утонувший колокол», посвященных схожей теме. Было отмечено, что причиной написания произведения «Волшебница пери» стало «Утонувший колокол». Обсуждаллись элементы символизма и магреализма, проявившиеся в обоих произведениях.

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Törə Məmmədova**